*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (2) 2024*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:20.02.2024*
*Kabul tarihi |Accepted:20.03.2024*
*Yayın tarihi |Published:25.04.2024*

**Günay Həsənova**

*https://orcid.org/ 0009-0004-0949-8332*
*PhD student, Dissertator of the Department "Social Sciences" of the Azerbaijan University, Azerbaijan, hesenovasiman6@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Həsənova, G. (2024). XVIII yüzilliyin Sonu – XX Yüzilliyin Əvvəllərində Quba Bölgəsində Metalişləmə Sənətkarlığının Tarixindən. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (2), 1388-1404, https://doi.org/10.46868/atdd.2024.751

# XVIII yüzilliyin Sonu – XX yüzilliyin Əvvəllərində Quba Bölgəsində Metalişləmə Sənətkarlığının Tarixindən

***Xülasə***

*Cənubi Qafqazın təbii filiz yataqları ilə zəngin olması Azərbaycanın digər bölgələrində olduğu kimi, Quba bölgəsində də metalişləmənin bir sıra sahələrinin yaranmasına, intişar və inkişafına əlverişli şərait yaratmışdır. Metalişləmə ustaları dinc dövrdə əsasən məişət və kənd təsərrüfatı alətləri, müharibə təhlükəsi yarandıqda isə müxtəlif növ döyüş silahların istehsalı ilə məşğul olmuşdular. XVIII yüzilliyin sonu – XIX yüzilliyin əvvəllərində metalişləmənin dəmirçilik, nalbəndlik, misgərlik, silahsazlıq, zərgərlik, sikkəsazlıq kimi sahələri geniş yayıldığı halda, XIX yüzilliyin sonlarına doğru, əsasən də Rusiyadan gətirilən nisbətən ucuz məişət əşyaları, alətlər və s. geniş yayılması nəticəsində, bir sıra sənətkarlıq sahələri tənəzzül etməyə başlamışdı. Amma lap XX yüzilliyin əvvəllərində də bəzi sənətkarlıq sahələri yaşayıb inkişaf etməkdə idi.*

***Açar sözlər:*** *Şimali Azərbaycan, Quba bölgəsi, sənətkarlıq, metalişləmə, dəmirçilik, nalbəndlik, misgərlik, zərgərlik*

# Late 18th - early 20th centuries from the history of metalworking arts in the Guba region

***Abstract***

*The fact that the South Caucasus, like other regions of Azerbaijan, is rich in natural mineral deposits created favourable conditions for the formation, expansion and development of a number of*

Creative Commons Licence BY NC

*metallurgical fields in the Guba region. Metallurgists were engaged in the production of household and agricultural implements in peacetime, and various types of military weapons during the threat of war. In the late 18th - early 19th centuries metalworking such as blacksmithing, shoemaking, coppersmithing, weaponry, jewellery and coinage was widespread, but towards the end of the 19th century relatively cheap household items, tools, etc. were imported mainly from Russia. As a result of its widespread use, some craft industries began to decline. But at the beginning of the 20th century some craft areas were still alive and thriving.*

***Keywords:*** *North Azerbaijan, Guba region, crafts, metalworking, blacksmithing, shoemaking, coppersmithing, jewellery making*

## Giriş

İnsanların təsərrüfat həyatının ən mühüm sahələrindən biri olan sənətkarlıq cəmiyyətin həyatında böyük əhəmiyyətə malik olmuşdur. Sənətkarlığın ölkə iqtisadiyyatında gözəçarpacaq dərəcədə artan rolu son illər bu sahənin dirçəldilməsinə marağı xeyli artırmışdır. Sənətkarlığın dirçəldilməsi zərurəti, həm də bu sahənin tarixinin öyrənilməsi vəzifəsini aktuallaşdırır. Vətən tarix elmində bilavasitə milli sənətkarlıq tariximizə həsr olunmuş əsərlər çox kasaddır. Keçən əsrin 80-ci illərində Şimali Azərbaycan şəhərlərinin tarixinin öyrənilməsi istiqamətində bir sıra tədqiqatlar yazılarkən sənətkarlıq tariximiz də ötəri işıqlandırılmış, bəzən də diqqətdən kənarda qalmışdır. Bununla belə milli tarix elminə bəhs olunan dövrün sənətkarlıq tarixi ilə bilavasitə bağlı əsərlər yox dərəcəsində deyildir. Ölkəmizin ayrı-ayri bölgələrinin XVIII yüzilliyin sonu – XX yüzilliyin əvvəllərinin milli sənətkarlıq tarixinin öyrənilməsinə son illərdə başlanılmışdır. Bu sahədə bir sıra tədqiqatlar aparılmaqdadır. Bunlara misal olaraq C.Mustafayevin, A. Mustafayevin araşdırmalarını göstərmək olar.

## 1.Metalişləmənin xammal bazası

Cənubi Qafqaz Rusiya tərəfindən işğal edildikcə, işğal olunmuş ərazilərdə təbii ehtiyatların axtarışı istiqamətində müəyyən tədqiqatların aparılmasına başlanıldı. Rusiyalı mütəxəsislərdən qraf Musin-Puşkin, Borzunov, Eyxveld, Loqinov, Krıjanovski, Voskoboynikov, XIX yüzilliyin 50-ci illərindən başlayaraq akademik Abix və başqaları burada zəngin dəmir, mis, qalay, qızıl və s. yataqlarının olduqlarını "kəşf etdilər." (İstoriçeskiy oçerk qornoqo dela na Kavkaze 1901, s. 146), Dövrün mütəxəssislərinin gəldikləri qənaətə görə Şimali Azərbaycan ərazisində qədim dövrlərdən dəmir və mis mədənləri Pəmbək dağ silsiləsinin şərq hissəsində, xüsusilə Şəmkir vadilərində, Daşkəsən dairəsində, habelə Tərtər vadisində yerləşirdi (Veydenbaum, 1877, s. 263-264). Dərələyəzdə qalay yataqların olduğu aşkar edilmişdi (Voskoboynikov, 1830, s. 332). Bu bölgəni tədqiq edən rus araşdırıcılarından biri yazırdı: "Bayan kəndin yaxınlığından keçəndə, elə yolun üstündə dəmirin ibtidai şəkildə əldə edildiyini göstərən köhnədən qalan çala və mağara izləri vardır. Mədənin ətrafında bəzən

kifayət qədər hündürlükdə torf vardır. Bu hündür, ağaclardan əmələ gəlmişdir. Bayan əhalisi ondan istifadə edərək dəmir əldə etmişdi." (Qeoqnostiçeskoye obozreniye Kazaxskoy i Şamşadilskoy distansii i Yelisavetpolskoqo okruqa, 1878, s. 112). Yerli dəmir istehsalı çətin, həm də baha başa gəldiyindən Cənubi Qafqazın metalişləmə emalatxanalarında idxal yolu ilə əldə olunan əcnəbi xammala daim ehtiyac hiss olunmuşdu. XVIII – XIX yüzilliklərdə Azərbaycanın metalişləmənin xammal təchizatından bəhs edərkən belə bir faktı da qeyd etmək yerinə düşərdi ki, Azərbaycanın qərb bölgəsində daha çox yerli, Daşkəsəndən və Osmanlı dövlətindən gətirilən dəmirə, ölkənin şərq bölgəsində isə Rusiya və Qacar dövlətindən idxal olunan xammala üstünlük verilirdi. XVIII yüzilliyin əvvəllərindən başlayaraq işğalçılıq siyasətini genişləndirən Rusiya qonşu ölkələri silah istehsalından məhrum etmək və onları hərbi cəhətdən zəif salmaq üçün Şərq ölkələrinə dəmir və polad ixracını məhdudlaşdırmaq siyasəti yürüdürdü. I Pyotr Xəzərsahili ərazilərin əhalisini silah istehsalı üçün zəruri xammaldan məhrum etmək məqsədilə özünün 1717 və 1719-cu il tarixli fərmanları ilə buraya dəmir ixracını qadağan etmişdi (Butkov, 1869, s. 14). 1752-ci ildə qubalı Hüseyn xanın Rusiyadan dəmirin buraxılması ilə bağlı müraciəti rədd edilmişdi (Butkov, 1869, s. 239). Bu məhdudiyyətlər XVIII yüzilliyin 50-ci illərin sonlarınadək davam etmişdir**.** Yalnız sədaqətini nümayiş etdirən bəzi yerli hakimlər mərhəmət əlaməti olaraq Rusiyadan dəmir almaq səlahiyyəti əldə edə bilmişdilər. Y.Veydenbaumun söylədiyinə görə, Xəzərsahili əyalətlərin əhalisi çox baha qiymətə olan dəmir, polad və qurğuşunu acgözlüklə alırdı (Veydenbaum, 1877, s. 258-259). A.S. Piralovun yazdığına görə, həmin dövrdə azacıq metal qırıntısı müqabilində burada çox vaxt xeyli qiymətli bir əşyanı satın almaq olurdu (Piralov, 1913, s. 84). Müharibələrdə istifadə olunan döyüş ləvazimatı, habelə silahlar, kənd təsərrüfatı alətləri və s. sənətkarlar tərəfindən çox vaxt dəmirdən istehsal olunduğuna görə bəhs olunan dövrdə dəmir qiymətli metal olaraq qalırdı. Hələ XVIII yüzilliyin 70-ci illərində xanlığın dağlıq ərazilərində qızıl, gümüş və qurğuşun yataqları aşkar edilmişdi. Lakin Fətəli xan qonşu Dağıstan hakimlərinin qızıl və gümüş yataqlarını ələ keçirəcəyindən ehtiyat edərək onların basdırılması ilə bağlı göstəriş vermişdi. Qurğuşun yataqlarını isə istifadə olunurdu (Pismo Kasim-beka Bakinskoqo k qen.-l. Repinu, ot 15-qo iyunya 1809 qoda, 1878, s. 63). XIX yüzilliyin 20-ci illərində Quba bölgəsinin metalişləmə ilə məşğul olan sənətkarlar qurğuşunu Axtı yaxınlığındakı Quruş kəndindən, misi Tiflisdən, dəmiri, qızılı və gümüşü Qacar, Osmanlı və Rusiya imperiyalarından gətirirdilər (Bronevskiy, 1823, s. 381). Osmanlı imperiyası vasitəsilə gətirilən polad Quba bölgəsində "Osmanlı poladı", yaxud "Dəməşq poladı" adı ilə məşhur idi. Dəməşq poladı silah ustalarının daha çox güvəndiyi xammal hesab olunurdu.

XIX yüzilliyin ikinci yarısından etibarən Qubanın kustar metal məmulatı dükanlarının xammalla təchizatında Bakı şəhəri başlıca rol oynamağa başlamışdı. Kapitalist Bakısına metal idxalının güclənməsində burada neft sənayesinin inkişafı ilə əlaqədar mexaniki təmir emalatxanalarının sayının artması və onların bir çoxunun tezliklə genişlənərək, iri təmir müəssisələrinə çevrilməsinin mühüm rolu olmuşdur. Bakı sərmayədarlarının köməyi ilə Quba dəmir ustaları kifayət qədər xam və işlənmiş (köhnə) metal ehtiyatı ilə təmin olunurdular. 1848-ci ilin məlumatına görə hər il Bakıdan Quba bölgəsinə 6 min pud dəmir gətirilirdi (Dyukruasi, 1853). 1852-ci ildə Bakıda 1 pud adi zolaqlı dəmir 1 rubl 10 qəpiyə, ensizi 1 rubl 25 qəpiyə, dairəvi dəmir 1 rubl 25 qəpik, uzunsov kərpicşəkillisi 1 rubl 25 qəpik, oyması 1 rubl 25 qəpik, şinlisi 1 rubl 30 qəpik, təbəqə dəmiri 1 rubl 10 qəpiyə, poladı isə 1 rubl 35 qəpiyə satın almaq olurdu (Dyukruasi, 1853). Dəmir yolu çəkiləndən sonra Qubaya Yelizavetpoldan da dəmirin gətirilməsinə başlanmışdı. Yelizavetpol dəmirinin 1 pudunun qiyməti 1 rubl – 1 rubl 40 qəpiyə idi (Xatisov, 1894). Yarımfabrikantlar çox baha qiymətə İrandan və Rusiyadan gətirildiyi üçün Quba dəmirçilərinin çoxu sifarişlə işləməyə üstünlük verirdilər. Çünki belə materialın satın alınmasına çox az sənətkarın imkanı çatırdı, buna görə də dəmirçilərin çoxu dəmiri bazardan yox sifarişçinin özündən alırdılar.

### 1.1.Dəmirçilik

Haqqında danışdığımız dövrdə Quba bölgəsində də dəmirçiliyində ixtisaslaşma baş vermişdi. Bunu həmin dövrdə Cənubi Qafqazın tədqiqi ilə məşğul olmuş müəlliflər də təsdiq edirdilər. Rus tədqiqatçısı dəmirçi sənətkarları məşğul sahələrinə görə üç qrupa bölürdü. Birincilər başlıca olaraq kotan və ya dəmir gavahınlı xış, müxtəlif bellər, zəncirlər, oraq, dəryaz, dırmıq və digər kəndli təsərrüfat alətləri, ikincilər, məişət əşyaları – tava, sac, manqal, sacayağı, qayçı, qıfıl, maşa, ərsin və digər əşyalar, üçüncülər, isə müxtəlif sənətkarlar üçün çəkic, zindan, balta, mişar və kərkilər kimi kəsici alətlər hazırlayırdılar (Dyukruasi, 1853, s. 45). Lakin nalbəndlik ayrıca sahə kimi inkişaf etmişdi. 1876-cı ilin məlumatına görə, Quba şəhərində 4 nalbənd emalatxanası fəaliyyət göstərirdi. Bunlardan Bəşir Abdulla oğlunun və Davud Zaxar oğlunun emalatxanaları daha məşhur idi (Jurnal qeneralnoy proverki torqovıx i promışlennıx zavedeniy v qorode Kubı i yevreyskoy zaqorodnoy slobodı. 1876 qod , s. 1-119). Nalbəndliklə əsasən şəhər ustaları məşğul olduğuna görə kəndlilər atı nallamaq üçün şəhərə gəlməli olurdular (Ekonomiçeskiy bıt qosudarstvennıx krestyan severnoy çasti Kubinskoqo uyezda, 1886, s. 340). Lakin XIX yüzilliyin sonlarında nalbəndliyin kəndlərə "köçməsinin" baş verməsi şəhərdə nalbəndlərin sayının azalmasına səbəb olmuşdur. Mənbələrdə 1887-ci ildə şəhərdə məscid dükanında yalnız şamaxılı hacı Bağırın nalbəndliklə məşğul olduğu göstərilir (Jurnal qeneralnoy proverki torqovıx i promışlennıx zavedeniy po qorode Kubı, za 1887 qod,

s. 2-60). Xanlıq dövründə olduğu kimi, işğaldan sonrakı illərdə də metalişləmədə dəmirçilik sənəti aparıcı sahə olaraq qalırdı. Dəmirçi emalatxanaları Quba bölgəsinin kəndlərinə nisbətən şəhərdə daha çox olurdu (Ekonomiçeskiy bıt qosudarstvennıx krestyan severnoy çasti Kubinskoqo uyezda, 1886, s. 340). Quba şəhərində dəmirçilərin böyük dəstəsi çalışırdı. XIX yüzilliyin 20-cı illərin sonlarında təkcə Quba şəhərində 15 dəmirçi emalatxanası fəaliyyət göstərmişdir (Leqkobıtov, Kubinskaya provinsiya, 1836, s. 142-143). Bu emalatxanalarının sayı 1842-ci ildə 26 (Sumbatzade, 1964, s. 52), 1851-ci ildə 27-yə çatırdı (Kuba, Kavkazskiy kalendar na 1852 qod, 1851, s. 337). Şəhər dəmirçilərinin sayının təhlili göstərir ki, XIX yüzilliyin 60-cı illərində bu sahənin inkişafında nisbi irəliləyiş nəzərə çarpsa da (sayı 23 olmuşdur (Sumbatzade, 1964, s. 52), yüzilliyin sonuna doğru bu sahədə tənəzzül müşahidə olunurdu. Belə ki, 1876-ci ildə Quba şəhərində 17 (Jurnal qeneralnoy proverki torqovıx i promişlennıx zavedeniy v qorode Kubı i yevreyskoy zaqorodnoy slobodı. 1876 qod, s. 1-119), 1887-ci ildə isə 2 dəmirçi emalatxanası fəaliyyət göstərmişdir (Jurnal qeneralnoy proverki torqovıx i promışlennıx zavedeniy po qorode Kubı, za 1887 qod, s. 2-60). Quba bölgəsində dəmirçiliyin tənəzzül etməsinin ən mühüm səbəblərindən biri XIX yüzilliyin sonlarında Rusiyadan gətirilən nisbətən ucuz müxtəlif kənd təsərrüfatı alətləri və məişət avdanlıqları ilə rəqabətə tab gətirə bilməməsi idi.

XIX əsrin 70-80-ci illərində Quba şəhərində Məşədi Əli KƏrbəlayi Nəsir oğlu, Ələkbər Abdulhüseyn oğlu, Cəfər Eldar oğlu, karbəlayi Cəbrayıl Ələkbər oğlu, Mirkərim Mirzəhüseyn oğlu, karbəlayi Abdulla Eyvaz oğlu, Həsən ələkbər oğlu, Əsgər Mirzə oğlu, Aydın Məstan oğlu, Nəcəf molla Qasım oğlu, Həmid karbəlayi Məmməd oğlu, Əli Məmməd oğlu, Rüstəm Məmməd oğlu, məşədi Həsən Hüseyn oğlu, Əli karbəlayi Şixəli oğlu, usta Paşa Sultan oğlu, Rəcəbəli Seyidəli oğlu, Həsən qəni oğlu, Şixi Şixmurad oğlu, məşədi Həsən Hüseyn oğlu, molla Məmməd molla Abdulkərim oğlu daha bacarıqlı dəmirçilər hesab olunurdular (Jurnal qeneralnoy proverki torqovıx i promişlennıx zavedeniy v qorode Kubı i yevreyskoy zaqorodnoy slobodı. 1876 qod, s. 1-119; Jurnal qeneralnoy proverki torqovıx i promışlennıx zavedeniy po qorode Kubı, za 1887 qod, s. 2-60). Quba bölgəsinin kəndlərində də dəmirçiliklə məşğul olurdular. Kəndlərin özündə də dəmirçilər arasında ixtisaslaşmanın getdiyi məlum olur. Bir sıra kəndlərdə kəndli təsərrüfatı və məişət alətləri hazırlanırdısa, digərlərində müxtəlif sənətkar alətləri düzəldilirdi. Bu kəndlər arasında Küsnət kəndi daha məşhur idi. Həmçinin İmamqulukənd, Afurca, Düztahir, Çarxlı və Xudat kəndlərində də dəmirçiliklə məşğul olduğu haqqında məlumat vardır (Cavadov, 1979, s. 35). Dağ-Quşçu kəndində hazırlanan, taxılın biçinində istifadə olunan çinlər daha keyfiyyətli olurdu. Quba bölgəsində yerli sənətkarların

düzəltdikləri çinlərlə yanaşı Lahıc çinlərindən də istifadə olunurdu ki, belə çinlər Lahıcdan Quba şəhərinə köçən və dəmirçiliklə məşğul olan ailələr tərəfindən də hazırlanırdı (Cavadov, 1979, s. 90). Quba dəmirçi emalatxanalarında muzdlu əməyin tətbiqinə nadir hallarda rast gəlmək mümkün idi. Bu, ilk növbədə onunla əlaqədar idi ki, dəmirçilik işinin spesifikasına uyğun olaraq dəmirçi emalatxanalarında adətən 2-3, heç olmazsa isə 1 əlavə işçiyə ehtiyac olurdu. Bu halda isə dəmirçi həmin yerə öz ailə üzvlərindən birini işçi kimi isə götürürdü. Sadə işləri isə o özü təkbaşına görürdü.

Azərbaycanın bütün bölgələrində olduğu ki, Quba bölgəsində də metalişləmədə də əsas sahə kənd təsərrüfatın aparıcı "silahı" olan kotanın hazırlanması hesab edilirdi. Əkin sahələrinin şumlanmasında istifadə olunan kotanın kəndlilərin qazanc mənbəyinə çevrilən boyaqotu və biyan kökünün çıxarılmasında daha da aktuallaşması kotana ehtiyacı artırmışdı. XIX yüzilliyin sonlarında Rusiyadan Ransom, Gena, ingilis-bolqar və digər kotanların kəndli təsərrüfatına nüfuz etməsi yerli dəmirçilərin hazırladıqları kotanların istehsalını azaltmışdı (Selskoye xozyaystvo. Promışlennost i torqovlya, 1888, s. 366). Gətirilmə kotanlar baha olduğu üçün kəndlilər onları ala bilmirdilər. Belə kotanlar yalnız imkanlı sakinlər və Quba bölgəsinə köçürülmüş ruslar tərəfindən alınırdı. Yerli kotanlar 33 rubla başa gəlirdi ki, yerli kəndlilərin cox vaxt hətta yerli kotanları almağa imkanı çatmırdı (Ekonomiçeskiy bıt qosudarstvennıx krestyan severnoy çasti Kubinskoqo uyezda, s. 351). Sonralar hətta rus kəndlilərinin belə üstünlük verdikləri gətirilmə kotanları yerli rus tədqiqatçısı Veydenbaumun "Albaniya dövründən qalma kotan" adlandırdığı (Veydenbaum, 1877, s. 290), kotan kimi düzəltmələri maraq doğururdu. Ona görə də yerlilərin daha çox üstünlük verdiyi yerli kotanların istehsalı davam etdirilirdi. XIX yüzilliyin 80-ci illərin məlumatına görə, əkinçiliklə məşğul olan kəndlilər dəryazı 1 rubla, baltanı 2 rubla, beli 1 rubla, yabanı 25 qəpiyə alırdılar (Ekonomiçeskiy bıt qosudarstvennıx krestyan yujnoy çasti Kubinskoqo uyezda, s. 211-212).

XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəllərində Rusiyadan Bakı quberniyasına xeyli kənd təsərrüfatı avadanlığı gətirilməsi dəmirçilik sənətinin bir sıra sahələrinin tənəzzülünə aparırdı. Belə ki, Bakı quberniyasına 1901-ci ildə 11037, 1902-ci ildə 13644, 1906-cı ildə 9724, 1907-ci ildə 15358, 1908-ci ildə isə 14171 kənd təsərrüfatı maşınları və alətləri gətirilib satılmışdı (Kaçner, 1910, №12). Gətirilən alətlərin 70 faizə qədəri kətmən, bel, dəryaz və s.-dən ibarət idi. Onların 25 faizi kotan, 5 faizi isə alət və maşınlar idi.

Quba şəhərində dəmir boru hazırlayan sənətkarlıq sahəsinin mövcud olduğu haqqında da məlumatlar vardır. 1842-ci ildə onların sayı 7, 1850-ci ildə 5, 1860-cı ildə isə 2 nəfər olmuşdur (Sumbatzade, 1964, s. 51). Lakin sonrakı illərdə bu sənət sahəsi ilə məşğul olanlar haqqında mənbələrdə məlumatlara rast gəlinmir. Quba şəhərində hətta emallı dəmir qablar istehsal edən

sənətkarların olduğu məlumdur (Pervaya vseobşaya perepis naseleniya Rossiyskoy imperii, 1897 g., 1905, s. 144).

**1.2.Silahsazlıq**

Qubanın metalişləmə sahələrindən biri də silah istehsalı olmuşdur. Metalişləmə sənətinin qədim sahələrindən olan silahsazlıq texnoloji cəhətdən mürəkkəb istehsal proseslərini əhatə edirdi. Ordu və hökmdarların inzibati – keşikçi dəstələrini zəruri silahlarla (qılınc, qalxan, nizə, toppuz, dəbilqə, qolçaq, müharibə köynəyi və s.) təmin edən orta əsr emalatxanalarının işi sənətdaxili ixtisaslaşmanın və bəsit əmək bölgüsünü əks etdirirdi. Sifarişlə işləyən xəzinə emalatxanaları ilə yanaşı, keçmişdə sərbəst satış üçün xəncər, bıçaq istehsal edən fərdi emalatxana - dükanlar da fəaliyyət göstərmişdir. XVIII yüzilliyin sonu – XIX yüzilliyin əvvəllərində metalişləmənin bir sıra sahələrinə nisbətən silah istehsalı zəifləmişdi. Buna baxmayaraq silahsazlıq hələ də fəaliyyətini davam etdirirdi. Bunu həm də əhalinin silaha aludəliklə bağlamaq olar. Rus tədqiqatçısı N. Dubrovin yazırdı: “Tatarlar (azərbaycanlılar – G.H.) qədim zamanlardan gözəl at sürən olmuşlar. Bu, onların döyüşkən ruhundan irəli gəlirdi. Onlar uzaq məsafələrə gedəndə yaxşı silahlanırlar: çiynində tüfəngi, kəmərin arxa hissəsində tapançası, ön hissəsində xəncəri, böyür hissəsində qılıncı olur. Tatarlar bu günümüzdə belə yaxşı silahları çox sevirlər (Dubrovin, 1871). XIX yüzilliyin əvvəllərində silahqayırmada çalışanlar odlu və soyuq silah hazırlayan sənətkarlar olmaqla iki sahəyə bölünürdü. Odlu silah hazırlayanlar lülədüzəldənlər, soyuq silah hazırlayanlar xəncər düzəldənlər adlanırdı. Silah düzəldənlərin hamısı təkbaşına işləyirdilər. Ənənəvi silahsazlıq sənəti, başlıca olaraq, şəhərlərdə və şəhər tipli qəsəbələrdə cəmləşmişdir. Şimali Azərbaycan şəhərləri arasında Şamaxı, Şəki, Şuşa, Naxçıvan, Ordubad, Bakı, Gəncə, Lənkəran ustaları ilə yanaşı Quba ustaları da bu sahədə xüsusi şöhrət qazanmışdılar (Mustafayev, 2009). Xanlıq dövründə Yerfi və Kulıq kəndləri tüfəng, tapança, qılınc, xəncər və digər silahları ilə tanınırdı (Bronevskiy, 1823). Rus tədqiqatçısı Rozanov Quba bölgəsində silah istehsalının geniş yayıldığı göstərirdi (Rozanov, 183). O. Yevetski Qafqazın bütün bölgələrində silah hazırlandığını yazırdı. Onun yazdığına görə, Tiflis, Axalsix, Abxaz və Dağıstanda, xüsusilə də Quba bölgəsində hazırlanan yerli əhalinin “bulat” adlandırdığı qılınc bıçağı daha keyfiyyətli olurdu. O, silahqayırmada Quba sənətkarlarının öz işləri ilə fəxr etdiyini vurğulayırdı (Yevetskiy,1835). Quba bölgəsində silah ustalarının sayının artmasına baxmayaraq, bu irəliləyiş, əsasən, soyuq silah, xüsusilə xəncər istehsalının genişlənməsi hesabına baş vermişdi. P.Q. Butkov Quba əyalətinin Yerfi və Kulıq kəndlərində qılınc və xəncər hazırlandığını yazırdı (Butkov, 1958). Tədqiatçı M.

Leqkobıtov da Quba bölgəsinin bir çox kəndlərində də xəncər və qılınc istehsalının geniş yayıldığını qeyd edirdi (Leqkobıtov, 1836, Kubinskaya provinsiya, s. 138). Onun yazdığına görə, qubalıların hamısı silah gəzdirirdi: *"Onlar uzaq məsafələrə gedəcəyi təqdirdə həmişə özləri ilə qılınc və tüfəng götürməyi unutmurlar. Bölgənin dağlıq ərazilərdə yaşayan kəndlərin uşaqları belə özləri ilə silah gəzdidirdilər"* (Leqkobıtov, 1836, Kubinskaya provinsiya, s. 128). 1831-ci ilin kameral təsvirinə görə, bu bölgənin Tip mahalının Küsnətbala kəndində xəncər düzəltmə işi ilə məşğul olan sənətkarlar olmuşdu (Quba əyalətinin kameral təsviri, 2008). Quba şəhərin özündə də silah düzəldən emalatxanalar fəaliyyət göstərirdi. Bu emalatxanaların əksəriyyəti sifarişlə işləyirdi. XIX əsrin 50-ci illərində şəhərdə 16 nəfər xəncər, bıçaq və sair düzəldən ustalar çalışırdılar (Kuba, Kavkazskiy kalendar na 1852 qod., 1851, s. 337). Quba şəhərində olmuş rus səyyahlarından biri şəhərdə gümüşlə işlənmiş xəncər, qılınc və habelə məişətdə istifadə olunan alətlər istehsal olunan dükan-emalatxanalarda gur iş getdiyini yazırdı (Putevıye zametki, Kavkaz, 1861, №41). 1876-cı ilin məlumatına görə Quba şəhərində 8 emalatxanada soyuq silah istehsal edilirdi (Jurnal qeneralnoy proverki torqovıx i promişlennıx zavedeniy v qorode Kubı i yevreyskoy zaqorodnoy slobodı. 1876 qod, s. 1-119). Həmin dükan – emalatxanalarda bəzəksiz sadə xəncər 10 rubla, gümüşlə işlənmişi isə 20-50 rubla satılırdı (Ekonomiçeskiy bıt qosudarstvennıx krestyan severnoy çasti Kubinskoqo uyezda, 1886, s. 378). Quba bölgəsində ticarətin xeyli hissəsini mahir silah ustalarının hazırladıqları xəncərlər təşkil edir. A.Düma Quba bazarında xəncərlərdən bir-ikisini almaq istədiyini, ancaq Əli Sultanın və Baqrationun səxavəti bunu imkansız etdiyini qeyd edirdi (Düma, 2010, s. 179). Cənubi Qafqazda soyuq silah istehsalının yüksək kamillik səviyyəsinə çatdığını XIX yüzilliyin tədqiqatçıları dönə-dönə etiraf etmişlər (Xatisov, 1894, s. 320). S.Qulişambarov bu cəhətdən Şamaxı, Göyçay və Quba qəzalarının xüsusilə fərqləndiyini və əmək alətlərinin bəsit olmasına baxmayaraq, bu sənətkarların çox zərif silah-sursat hazırladıqlarını qeyd edirdi (Qulişambarov, 1890, s. 237). XIX yüzilliyin 70-80-ci illərində şəhərdə soyuq silah istehsalı ilə məşğul olan sənətkarlar içərisində usta Nəcəf Əliməmməd oğlunun hazırladığı silahların həmişə alıcıları olurdu (Jurnal qeneralnoy proverki torqovıx i promişlennıx zavedeniy v qorode Kubı i yevreyskoy zaqorodnoy slobodı. 1876 qod, s. 1-119). Odlu silah istehsalı ilə məşğul olan sənətkarlar həmin dövr üçün keyfiyyətli silah hazırlayırdılar. Dəmirdən hazırlanan müxtəlif məişət, təsərrüfat alətlərinin təmiri və odlu silah istehsalı bilavasitə çilingərliklə bağlı olmuşdur. Çilingərlər çapma, nişanvurma, kəsmə, yiyələmə, burğulama, yivaçma, sürtmə, pərçimləmə kimi işləri həyata keçirirdi. Odlu silah hazırlamaq çilingərliyin əsas məşğuliyyəti hesab olunurdu. P.Q. Butkovun yazdığına görə Quba əyalətinin Yerfi və Kulıq kəndlərində xəncər və qılıncla yanaşı tüfəng və tapança da hazırlanırdı (Butkov, 1958, s. 204). Mənbələrdə Quba

bölgəsində odlu silah hazırlayan çilingərlər haqqında məlumatlar çox azdır. 1852-ci ilin məlumatına görə, Quba şəhərində cəmisi 2 nəfər lüləsatan fəaliyyət göstərirdi (Kuba, *Kavkazskiy kalendar na 1852 qod*, 1851, s. 337). XIX yüzilliyin 60-ci illərin məlumatına görə onları sayı yenə də 2 nəfər idi (Sumbatzade, 1964, s. 51). 1876-cı ildə odlu silah istehsalı və təmiri ilə 5 nəfər məşğul olduğu halda (Jurnal qeneralnoy proverki torqovıx i promışlennıx zavedeniy v qorode Kubı i yevreyskoy zaqorodnoy slobodı. 1876 qod, s. 1-119). 1887-ci bu işlə yalnız 1 nəfərin məşğul olurdu (Jurnal qeneralnoy proverki torqovıx i promışlennıx zavedeniy po qorode Kubı, za 1887 qod, s. 2-60). XIX yüzilliyin 80-ci illərinin məlumatında şəhər dükan-emalatxanasında qoşalülələli tüfəngin 15-50 rubla satıldığı göstərilir (Ekonomiçeskiy bıt qosudarstvennıx krestyan severnoy çasti Kubinskoqo uyezda, 1886, s. 378). Yerli ustaların hazırladığı odlu silahlar keyfiyyətliliyi ilə rus qoşunlarının silahlandığı süngülü tüfənglərdən üstün idi (Markqraf, 1882, s. 206-207). Lakin silahsazlığın odlu silah sənətkarlığı sahəsi 1877-1878-ci illər rus-Osmanlı müharbəsindən sonra tənəzzül etməyə başladı. 1877-ci ildə Qubada baş vermiş üsyan və bölgəni bürüyən qaçaq hərəkatı ilə əlaqədar olaraq Qafqazda silahgəzdirmənin qanunla qadağan olunması bu sahənin iqtisadi əhəmiyyətini itirməsi ilə nəticələndi (Kustarnaya promışlennost na Kavkaze. Vıpusk I. Kovrovıy promysel v Kubinskom uyezde, Bakinskoy qubernii, 1902, s. 30). Lakin bununla belə kəndlərdə odlu silah istehsalı ilə məşğul olanlar qalmaqda davam edirdi (Mustafaev, 2008, s. 36-38).

XIX yüzilliyin 70-80-ci illərində Kərbəlayi İbrahim Məşədi İsmayıl oğlu, Mehdiqulu Əli oğlu, Hacı ağa Hacı Qədim oğlu, Məmmədkərim Kərbəlayi Abdulla oğlu, Qurban Butay oğlu, Kərbəlayi Cəbrayıl Ələsgər oğlu bu sənət sahibləri içərisində ən mahirləri hesab olunurdular (Jurnal qeneralnoy proverki torqovıx i promışlennıx zavedeniy po qorode Kubı, za 1887 qod, s. 2-60). Bu sənətkarlar əsasən çaxmaq daşlı hamar və uzunlülələli döyüş tüfəngləri hazırlayırdılar. Bundan əlavə, tək və qoşalülələli ov tüfənglərinin istehsalı geniş yayılmışdı. Bəzən yerli silah ustaları da "aynalı", "suzani" adlanan tək - və cütlülələli tüfənglər düzəldirdilər (Mustafaev, 2008, s. 37).

XIX yüzilliyin sonlarında Şimali Azərbaycan ərazisini bürüyən qaçaq hərəkatının qarşısını almaq məqsədilə Cənubi Qafqaz diyarının baş mülki rəisi S.A. Şeremetyev tərəfindən əhalinin tərksilah edilməsi haqqındakı xüsusi sərəncam verilməsi (Niftəliyev, 2006, s. 118), XX əsrin əvvəllərində Bakı qubernatoru D.A. Odinsevun açıq və gizli şəkildə silah gəzdirilməsinə qadağa qoyulması haqqındakı qərarı (Baku. Vospreşeniye nosit orujiye, Moskovskiye vedomosti, №22) Quba bölgəsində silah istehsalına müəyyən mənfi təsir göstərdi.

Ümumiyyətlə, 1882-ci ildə Quba bölgəsinin 20 kəndində 90 ailə dəmir alət və məmulatı – tüfəng, xəncər, tapança, dəryaz, oraq və sair kənd təsərrüfatı alətləri hazırlanırdı (Kustarnaya promışlennost za Kavkazom, *Kavkaz*, 1882, № 311). XIX yüzilliyin sonlarında metal işləmə işi ilə 477 kişi məşğul olurdu (Pervaya vseobşaya perepis naseleniya Rossiyskoy imperii, 1897 g., 1905, s. 106). Kənd təsərrüfatı statistikası və kənd iqtisadiyyatı şöbəsinin məlumatına görə, 1912-ci ildə Quba qəzasında 126 dəmirçi çalışırdı (Piralov, 1913).

XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəllərində Quba şəhərində dəmir məmulatı ticarəti ilə məşğul olan xüsusi dükanlar fəaliyyətə başlamışdı. XIX yüzilliyin sonlarında Quba şəhərində 19, kəndlərində isə 10 metal məmulatı və silah ticarəti ilə məşğul olduğu göstərilir (Pervaya vseobşaya perepis naseleniya Rossiyskoy imperii, 1897 g., 1905, s. 106). Qubada fəaliyyət göstərən dükanlarda Rusiyadan gətirilən dəmirçilik məmulatı ilə yanaşı yerli sənətkarların hazırladığı müxtəlif dəmir alətləri və sair satılırdı. 1910-cu ilin məlumatına görə Quba şəhərində dəmir məmulatı ticarətinə əsasən M.A. Əmircanov, Q.Q. Balasyans, İ.B. və A.B. Qriqoryev qardaşları, R.Q. Rüstəmov baxırdılar. Əkinçilik alətlərinin ticarəti isə əsasən V.F. Raabenin əlində idi (Kuba, Kavkazskiy kalendar na 1910 qod, çast II, 1910).

### 1.3.Misgərlik

Quba bölgəsində xanlıq dövründə olduğu kimi XVIII yüzilliyin ikinci yarısı – XX yüzilliyin əvvəllərində metalişləmə sahəsində misgərlik sənətkarlığının özünəməxsus yeri olmuşdur. XIX yüzilliyin 20-cı illərin sonlarında Quba şəhərində 4 misgər emalatxanası olduğu halda (Leqkobıtov, 1836, Kubinskaya provinsiya, s. 142-143), 1849-1850-ci illərində şəhərdə 1 misgər emalatxanası fəaliyyət göstərmişdir (Əlizadə, 1995, s. 41). Misgər ustaları Həştərxandan misin gətirilməsində əngəllər yarandıqda Tiflisdən onun hər pudunu 7 rubl 60 qəpiyə almalı olurdular (Leqkobıtov, 1836, Şirvanskaya provinsiya, s. 124). Quba bazarında ildə 2 200 pud mis satılırdı ki, bu misin hamısı mis qablar istehsalına gedirdi (Leqkobıtov, 1836, Kubinskaya provinsiya, s. 138). Qubada yerli mis qabları ilə yanaşı Cənubi Qafqazda məşhur olan Lahıc istehsalı olan mis qablar da satılırdı. Lakin həmin qablar yerli qablara nisbətən baha olurdu (Leqkobıtov, 1836, Şirvanskaya provinsiya, s. 126). 1876-cı ildə 6 (Jurnal qeneralnoy proverki torqovıx i promışlennıx zavedeniy v qorode Kubı i yevreyskoy zaqorodnoy slobodı. 1876 qod, s. 1-119), 1887-ci bu işlə yalnız 4 emalatxananın fəaliyyətdə olduğu məlum olur (Jurnal qeneralnoy proverki torqovıx i promışlennıx zavedeniy po qorode Kubı, za 1887 qod, s. 2-60). Şəhərdə misgərliklə məşğul olan sənətkarın hamısı demək olar ki, lahıclı sənətkarlar olmuşdur. Həmin illərdə Qubada Kərbəlayi Əkbər Məmmədhüseyn oğlu, Seyidəli Abbasəli oğlu, hacı İbrahim Həsən oğlu, Kərbəlayi Abutalıb Hacı Ağakişi oğlu, Kərbəlayi Həsən Hacı sultan oğlu, Kərbəlayi Sadıx Hacı Şirin oğlu, Kərbəlayi Hacı Baba Hacı Dadaş oğlu, Kərbəlayi

Mehdi hacı İbrahim oğlu (iki emalatxana işlədirdi) və digər sənətkarlar ən mahirləri hesab olunurdular (Jurnal qeneralnoy proverki torqovıx i promişlennıx zavedeniy v qorode Kubı i yevreyskoy zaqorodnoy slobodı. 1876 god, s. 1-119; Jurnal qeneralnoy proverki torqovıx i promişlennıx zavedeniy po qorode Kubı, za 1887 qod, s. 2-60). Quba misgərlərinin hazırladıqları mis qablar - mis küpə 5, ləyən 6, ləyənlə birlikdə cüt əlyuyan 12, məcməyi 5, plov qabı üçün iki qapaq - sərpuş 3, balaca ləyən 2, plov üçün boşqab 4, qazan 4 rubl 50 qəpiyə, kasa 1 rubl 50 qəpiyə satılırdı (Ekonomiçeskiy bıt qosudarstvennıx krestyan severnoy çasti Kubinskoqo uyezda, 1886, s. 379). Bundan əlavə Qubada hər bir evdə işlədilən mis bardaqlar da düzəldilirdi (Myuşkyurskaya dolina, Kavkaz, 1865, №17). Quba bölgəsində hazırlanan tərəzinin misdən olan tərəzi gözü – kasası elə düzəldilirdi ki, uzaq məsafələrə gedən zaman ondan quyu və ya çaydan su götürmək üçün yarasın (Putevyıe zametki, Kavkaz, 1859, №15).

XIX yüzilliyin sonlarında şəhərin Bazar küçəsindəki Hacı Aslan Tahir oğlunun evinin birinci mərtəbəsində Kərbalayi Hacıbaba Hacıdadaş oğluna, Məşədi Mustafa Hacı İbrahimin evinin birinci mərtəbəsində Kərbalayi Canbaxış Hacı Şixi olğuna, Məşədi Mustafa Hacı İbrahimin evinin birinci mərtəbəsində Kərbalayi Mehdi Hacı İbrahimə məxsus misgərlik emalatxanaları fəaliyyət göstərmişdir (Torqovo-promışlennaya Rossiya. Spravoçnaya kniqa dlya kupsov i fabrikantov, 1899, s. 2279). 1910-cu ilin məlumatına görə, Qubada mis qabları ticarətinə Hacı Baxşiəli Mərdan oğlu, Hacı Mehdi Hacı İbrahim oğlu, Kərbalayi Məhəmməd Hacı Əlimərdan oğlu nəzarət edirdilər (Kuba, Kavkazskiy kalendar na 1910 qod, çast II, 1910, s. 308).

Misgərliyin ixtisaslaşmış sahələrindən biri qalayçılıq idi. Qalayçılar mis məmulatları paslanmaqdan qorumaq üçün onları qalaylamaqla məşğul olurdularr. XVIII yüzilliyin sonu – XIX yüzilliyin əvvəllərində Qafqazın bütün bölgələrində bu sənətlə məşğul olanların sayı kifayət qədər çox olmuşdur. XIX yüzilliyin 20-cı illərin sonlarında Quba şəhərində 4 qalayçı emalatxanası fəaliyyət göstərmişdir (Leqkobıtov, 1836, Kubinskaya provinsiya, s. 142-143). 1842-ci ildə burada 16 nəfər qalayçılıqla məşğul olmuşdur (Sumbatzade, 1961, s. 52). 1850-ci ildə onların sayı 6-ya bərabər olmuşdur (Kuba, Kavkazskiy kalendar na 1852 qod, 1851, s. 337). XIX yüzilliyin 60-cı illərində Qubada olmuş İstomin şəhərdə qalayçı emalatxanaların fəaliyyət göstərdiyini yazırdı (Puteviya zametki, Kavkaz, 1861, № 41). Həmin illərdə yalnız Quba şəhərində 7 nəfər qalayçı var idi (Sumbatzade, 1961, s. 52). 1876-cı ildə 3 (Jurnal qeneralnoy proverki torqovıx i promişlennıx zavedeniy v qorode Kubı i yevreyskoy zaqorodnoy slobodı. 1876 god, s. 1-119), 1887-ci bu işlə yalnız 1 qalayçı emalatxanasının fəaliyyətdə olduğu barədə məlumat var (Jurnal qeneralnoy proverki torqovıx i promişlennıx zavedeniy po qorode Kubı,

za 1887 qod, s. 2-60). Tədqiq olunan dövrdə əsasən ev peşəsi (bəzən də sifarişli) xarakteri daşımış qalayçılığın inkişaf dinamikasına nəzər salsaq XIX yüzilliyin 30-cu illərinə nisbətən 40-50-ci illərdə qalayçılıqda cüzi irəliləyişin baş verməsi qalayçılara olan tələbatdan doğurdu.

### 1.4.Zərgərlik

Metalişləmənin əsas sahələrindən biri də zərgərlik hesab olunurdu. Quba bölgəsində Zərgərlər, Zərgərli-Pirabad adlı kəndlərin olması bu bölgədə tarixən zərgərliyin intişar tapdığı göstərir. Zərgərlər mis, tunc, xüsusilə gümüş və qızıldan müxtəlif bəzək əşyaları hazırlayırdılar. Dekorativ-tətbiqi sənətinin ən qədim və geniş yayılmış sahələrindən biri olan zərgərlik sənəti Şimali Azərbaycanın bütün bölgələrində olduğu kimi qubalıların həyatında da mühüm yer tuturdu. Xanlıq dövründə olduğu kimi XIX – XX yüzilliyin əvvəllərində zinət məmulatları ən çox qubalıların imkanlı zümrəsi arasında geniş yayılmışdı. Zinət əşyalarına olan tələbat bu sənətin qorunub saxlanmasına və yeni çalarlar əlavə edilməklə inkişafına əlverişli zəmin yaratmışdır.

Zərgərlər əsasən Quba şəhərində çalışırdılar. Çox vaxt sifarişlə iş görən zərgər dükanları bazar və karvansaralarda, nadir hallarda isə ustanın şəxsi mülkündə yerləşirdi. Zinət istehsalı sahəsində orta əsrlərdən başlanan sənətdaxili ixtisaslaşma XIX yüzillikdə də davam etmişdir. Məhz bunun sayəsində zinət istehsalı zərgərlik, gümüşbəndlik və cəvahirsazlıq olmaqla, müxtəlif ixtisas sahələrinə ayrılmışdır. Hətta zərgərlər arasında minasaz, şəbəkəçi (toplamaçı), qəlibkar və aynalama məmulatı hazırlayan ustaların işi texnoloji cəhətdən bir-birindən fərqlənirdi. XIX yüzilliyin 20-cı illərinin sonlarında Quba şəhərində 3 gümüş zərgər emalatxanasında sənətkarlar çalışırdılar (Leqkobıtov, 1836, Kubinskaya provinsiya, s. 142-143). 1842-ci ildə burada çalışan zərgərlərin (qızıl və gümüş işi ustalarının) sayı 8, 1850-ci ildə 6, 1860-cı ildə 11-ə çatmışdı (Sumbatzade, 1961, s. 52). Bu işlə 1876-cı ildə 7 (Jurnal qeneralnoy proverki torqovıx i promişlennıx zavedeniy v qorode Kubı i yevreyskoy zaqorodnoy slobodı. 1876 god, s. 1-119), 1887-ci yalnız 1 emalatxananın məşğul olduğu barədə məlumat var (Jurnal qeneralnoy proverki torqovıx i promişlennıx zavedeniy po qorode Kubı, za 1887 qod, s. 2-60). Həmin emalatxanalarda Əlihüseyn Kərbəlayi İsmayılqulu oğlu, Abdulsəlim Abdulkərim oğlu, Ağa Kəllay oğlu, Urve Semyon oğlu və digər sənətkarların hazırladıqları zərgərlik məmulatlarının müştəriləri çox olurdu. Bu usta sənətkarlar sifarişlə də zərgərlik məmulatı hazırlayırdılar (Jurnal qeneralnoy proverki torqovıx i promişlennıx zavedeniy v qorode Kubı i yevreyskoy zaqorodnoy slobodı. 1876 god, s. 1-119). Qubada olmuş professor Berezin burada Dərbənddəki kimi bəzək əşyalarından istifadə etdildiyini yazırdı. Onun yazdığına görə, üç barmaq qalınlığında olan qızıl boyunbağı və ya həmayilin ortasında qiymətli daşdan hazırlanan düymə (və ya üç düymə) olurdu. Bundan əlavə boyunbağıda qızıldan

düzəldilən "pərvanə" adlanan müxtəlif figurlar yerləşdirilirdi (Berezin, 1850, s. 100). "Silsilə" adlanan boyunbağı sapa keçirilən çervon pullardan düzəldilirdi. Pulların arasında mirvari dənələri və ya qızıl figurlar yerləşdirilirdi. Silsilənin ortasında adətən ikili çervon, bəzən də bir dənə qızıl figur olurdu (Berezin, 1850, s. 106). Qeyd etmək lazımdır ki, Şimali Azərbaycanın, o cümlədən Qubanın zərgərlik emalatxanalarının məhsulları milli koloritinə, forma kamilliyinə və naxış səlisliyinə görə, nəinki Qafqazın digər məhəlli zərgərlik emalatxanalarının, habelə Avropa və Rusiyanın mərkəzlərinin hazırladığı zinətlərdən yüksəkdə dururdu. Onların hazırladığı məmulatlar naxışlarının bədii məziyyəti və dekor ayrıntılarının səlisliyi baxımından insanı heyran edirdi. Avropanın yeknəsəq biçimli zərgərlik məmulatının kütləvi istehsalında tətbiq edilən hər cür cihaz və avadanlıqdan məhrum olan bu ustaların bütün sənət məhsulları hövsələli zəhmətin və mahir əllərin bəhrəsi idi. Elə bunun nəticəsi idi ki, Quba şəhərində hazırlanan zinət əşyalarının rəqabətliliyi onun satışına və bu sənət ustalarının sayının artmasına gətirib çıxarmış oldu. XIX yüzilliyin sonlarına aid statistik məlumata görə, Quba şəhərində 24, kəndlərdə isə 86 nəfərin zərgərliklə məşğul olurdu (Pervaya vseobşaya perepis naseleniya Rossiyskoy imperii, 1897 g., 1905, s. 106). XIX yüzilliyin 70-ci illərində Avropa dövlətlərində qızıl və gümüşün qiymətində ucuzlaşmanın baş verməsinə baxmayaraq (Ponijeniye sen na serebro, Kavkaz, 1877, № 13), Rusiyada bu qiymətli metalların qiyməti kifayət qədər baha olaraq qalırdı. Rusiyada 1 yarımimperial 6 rubl 70 qəpiyə satılırdı. Belə bahalıq Rusiyada bir sıra fabriklərin istehsalın dayandırmasına və bəzilərin bağlanmasına gətirib çıxarmışdı (Torqovıye izvestiya, Kavkaz, 1877, №40). Rusiyada qızıl və gümüşün bahalaşması təbii ki, Şimali Azərbaycanın digər şəhərlərində olduğu kimi, Quba şəhərində də zərgərliyin inkişafına təsirsiz ötüşmədi. Lakin sonrakı illərdə hökumətin bu sahədə gördüyü müəyyən tədbirlər zərgərliyin tənəzzül etməsinin qarşısını almış oldu.

Qafqazda qızıl və gümüş məmulatının istehsalının nizama salınması üçün maliyyə nazirliyi tərəfindən 1896-cı ilin martın 11-də əyar nizamnaməsi (Vısoçayşe utderjdennıy Probirnıy ustav, 1899, s. 173-182) və 1897-cı ilin iyunun 2-də əyar üzrə təlimat təsdiq olundu. Qanun zərgərlik istehsalını əyar idarəsinin tabeliyinə verirdi. Qeyd edək ki, Quba zərgərliyi Cənubi Qafqazda yaradılan üç əyar idarəsindən biri olan Bakı əyar idarəsinin tabeliyində idi. Qanuna görə nəcib və əlvan metallardan hazırlanan zərgərlik məmulatı satışa çıxarılmazdan əvvəl onun dəyərinin müəyyənləşdirilməsi üçün həmin idarəyə təqdim edilməli idi. Bu hər bir gümüş üçün məmulat 2 qəpik, qızıl üçün 30 qəpik müəyyən edilmişdi. Hər bir zərgər gümüş üçün 84-dən, qızıl üçün 56-dan aşağı əyar edilməməli idi. Zərgər ilin əvvəlində adı və familiyasının baş hərfləri həkk olunmuş damğası olan məmulatın istehsalı haqqında idarəyə

ərizə ilə müraciət etməli idi. Belə damğa həmin zərgərin istehsal etdiyi bütün məmulatın üzərinə vurulmalı idi. Müraciət olunmadığı təqdirdə zərgər 30 rubladək cərimə gözləyirdi.

**1.5. Sikkə sənətkarlığı**

Gümüş və mis kimi nəcib və əlvan metallardan həm də pul kəsilməsində istifadə olunurdu. Azərbaycanın 2 500 illik pul işi tarixində sikkələr zərb olunduğu şəhərin adı ilə bağlı olmuşdur. Quba, Dərbənd şəhərlərində zərbxanalar fəaliyyət göstərirdi. Dərbənddə zərb olunan sikkələr Qubada zərb olunan sikkələrdən daha keyfiyyətli idi (Mustafazadə, 2005, s. 60). Zərbxanaların mürəkkəb istehsal prosesi var idi. Sabikəsaz adlanan zərbxana işçisi tərəfindən pul istehsal olunacaq gümüş əritmə yolu ilə kənar qatışıqlardan təmizləndikdən sonra döymə yolu ilə uzun dairəvi külçə halına salınaraq çarxkeşdən (deşikli polad lövhə) keçirilirdi. Xüsusi kəsici gəzgah vasitəsilə hazır külçə abbası ölçüsündə doğranırdı. Pulun kəsilməsinin sonuncu mərhələsində dairəvi şəklə salınmış külçə qızdırılaraq qəlibə salındıqdan sonra zərrab çəkici vasitəsilə onun üstündən vurulurdu (Mustafayev, 2002, s. 129). Lakin bu xanlığın hakimi uzaqgörən və yorulmaz Fəthəli xanın (1758 - 1789) səyləri nəticəsində əldə edilmiş ciddi sosial-iqtisadi və hərbi-siyasi uğurlara baxmayaraq, Quba zərbxanasının XIX yüzillikdən əvvəlki illərdə sikkələrin zərb edilməsi ilə bağlı faktlar əldə edilməmişdir. Aşkar olunmuş XIX yüzilliyin əvvəllərinə aid edilən 5 ədəd gümüş 2,19 qram çəkidə olan abbasilər Azərbaycan Milli Tarix muzeyində saxlanılır. Həmin pulların üzərində əlavə işarə "rahi" – yəni işləyə bilən sözləri həkk olunmuşdur. Quba sikkələri üzərindəki yazıların kobudluğu zərbxananın lazımı səviyyədə işləməsi üçün ixtisaslı sikkəçilərin keyfiyyətli texniki avadanlıqla təchiz olunmaması ilə bağlı olmuşdur (Radjabli, 1997, s. 99). Görünür Rusiya imperatorunun Cənubi Qafqazdakı məmurları üsyankar Şeyxəli xanın iqtisadi durumuna zərbə vurmaq üçün Quba xanlarının zərb etdikləri pulların istifadəsinə qadağa qoymuşdular. Elə bunun nəticəsidir ki, XIX yüzilliyin əvvəllərində istifadə olunan Quba pulları gizlin zərb olunduğu üçün keyfiyyətli alınmamışdı. Lakin bu o deməк deyildir ki, Quba xanlığının qüdrətli vaxtlarında burada yerli pullar zərb edilməmişdi. Leqkobıtovun Quba bölgəsində yalnız Quba şəhərində zərb edilən 20 qəpiklik mis pullarının istifadə edildiyi göstərməsi (Leqkobıtov, 1836, Kubinskaya provinsiya, s. 142-143), rus çarizmin siyasətinin nəticəsi kimi dəyərləndirmək olar.

**Nəticə**

Beləliklə, Azərbaycanımızın digər bölgələrində olduğu kimi, Quba bölgəsində də metalişləmənin bir sıra sənətkarlıq sahələri geniş inkişaf etmişdi. XVIII yüzilliyin sonlarında Quba bölgəsində metalişləmənin dəmirçilik, nalbəndlik, silahqayırma, çilingərlik, misgərlik, qalayçılıq, zərgərlik, pul kəsmə kimi çoxsaylı sənət sahələri var idi. Rusiya işğallarından sonra buraya gətirilən ucuz metal alət və avadanlıqların rəqabətinə dözə bilməyən bəzi sənət sahələri

iflasa uğrayıb tədricən aradan çıxsa da XX yüzilliyin əvvəllərində belə sənət sahələrindən bəziləri öz rol və mövqelərini qoruyub saxlamaqda idilər.

### Kaynaklar

Baku. Vospreşeniye nosit orujiye, *Moskovskiye vedomosti*, 17 (04) yanvarya 1901 qoda, №22.

Berezin, İ. (1850). *Puteşestviye po Dagestanu i Zakavkazyu*. Universitetskaya tipoqrafiya.

Bronevskiy, S. (1823). *Noveyşiye qeoqrafiçeskiye i istoriçeskoye izvestiye o Kavkaze*. V 2-x çastyax, çast II, Tipoqrafiya S.Slivanovskoqo.

Butkov, P. (1869). *Materialı dlya novoy istorii Kavkaza s 1722 po 1803 qod*, Tipoqrafiya İmperatorskoy Akademii Nauk, SPb.

Butkov, P. (1958). *Vıderjki iz proyekta otçeta o persidskoy ekspedisii v vide pisem*. 1796., İstoriya, qeoqrafiya i etnoqrafiya Dagestana XVIII – XIX vv, arxivnıye materialı, İsdatelstvo vostoçnoy literaturı, Moskva.

Cavadov, Q. (1979). *XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanın əkinçilik alətləri (Şimal-şərq rayonlarının materialları əsasında tarixi-etnoqrafik tədqiqat).* Elm.

Dubrovin, N. (1871). *İstoriya voynı i vladıçestva russkix na Kavkaze,* V 6-tomax, tom I, Tipoqrafiya Departamenta Udelov, SPb.

Düma, A. (2010). *Qafqaz*. Qafqaz.

Dyukruasi, İ. (1853). O torqovle jelezom Zakavkazskom kraye, *Zapiski Kavkazskoqo Otdela İmperatorskoqo Russkoqo Qeoqrafiçeskoqo obşestva,* Kniqa II. Tipoqrafiya Kanselyarii Namestnika Kavkazskoqo.

Ekonomiçeskiy bıt gosudarstvennıx krestyan yujnoy çasti Kubinskoqo uyezda, Bakinskoy qubernii, issledovaniye P.N. Yagodinskoqo, *Materialı dlya izuçeniya ekonomiçeskoqo bıta gosudarstvennıx krestyan Zakavkazskoqo kraya*. (1886). v 7-mi tomax, tom II, çast I, Tipografiya A.A.Mixelsona, Tiflis.

Ekonomiçeskiy bıt qosudarstvennıx krestyan severnoy çasti Kubinskoqo uyezda, Bakinskoy qubernii, issledovaniye P.V. Kotlyarevskoqo, *Materialı dlya izuçeniya ekonomiçeskoqo bıta qosudarstvennıx krestyan Zakavkazskoqo kraya*. (1886). v 7-mi tomax, tom II, çast I, Tipoqrafiya A.A.Mixelsona, Tiflis.

Əlizadə, Ə. (1995). *XIX əsrin birinci yarısında Şimali Azərbaycanda sənətkarlıq*. Tarix üzrə fəl. doktoru elmi dərəcəsi almaq üçün təqdim etmiş diss. Bakı.

Xatisov K., Kustarnıye promıslı Zakavkazskoqo kraya, *Otçotı i issledovaniya po kustarnoy promişlennosti v Rossii*. (1894). tom II, Tipoqrafiya V.Kirşbauma, SPb.

*İstoriçeskiy oçerk qornoqo dela na Kavkaze* (1901). Tipoqrafiya Ştaba Kavkazskoqo Voyennoqo okruqa, Tiflis.

Jurnal qeneralnoy proverki torqovıx i promışlennıx zavedeniy po qorode Kubı, za 1887 qod. *Azərbaycan Respublikası Dövlət Tarix Arxivi*, f. 43, siy. 1, iş 941 .

Jurnal qeneralnoy proverki torqovıx i promışlennıx zavedeniy v qorode Kubı i yevreyskoy zaqorodnoy slobodı. 1876 qod. *Azərbaycan Respublikası Dövlət Tarix Arxivi,* f. 43, siy. 1, iş 98.

Kaçner, Y. (1910). Vvoz i rasprostraneniye selskoxozyaystvennıx mashin i orudiy v Zakavkazye, *Kavkazskoye khozyaystvo*, № 12.

Kuba, *Kavkazskiy kalendar na 1852 qod.* (1851). Tipoqrafiya Kanselyarii Namestnika Kavkazskoqo.

Kuba, *Kavkazskiy kalendar na 1910 qod, çast II.* (1910). Tipoqrafiya i pereplyotnaya t.-va "Liberman i K°", Tiflis.

*Kustarnaya promışlennost na Kavkaze. Vıpusk I. Kovrovıy promysel v Kubinskom uyezde, Bakinskoy qubernii.* (1902). Tipoqrafiya K.P.Kozlovskoqo, Tiflis.

Kustarnaya promışlennost za Kavkazom. 24 noyabrya 1882 qoda, № 311. *Kavkaz.*

Qeoqnostiçeskoye obozreniye Kazaxskoy i Şamşadilskoy distansii i Yelisavetpolskoqo okruqa. – Sostavil berq-qeşvoren Quryev. Vvedeniye, *Aktı, sobrannıye Kavkazskoyu Arxeoqrafiçeskoyu Komissiyeyu,* (1878), v 12-ti tomax, Tom VII, Tipoqrafiya Qlavnoqo Upravleniye Namestnika Kavkazskoqo.

*Quba əyalətinin kameral təsviri (1831-ci ildə kollec reqistraturu Xotyanovski tərəfindən tərtib edilmişdir).* (2008). Tərcümə, giriş, qeydlər və yekun cədvəllərin müəllifi professor T.T. Mustafazadənindir, Sabah.

Qulişambarov, S. (1890). *Obzor fabrik i zavodov Bakinskoy qubernii*, Tipoqrafiya Kanselyarii Qlavnonaçalstvuyuşeqo Qrajdanskoy Çastyu na Kavkaze.

Leqkobıtov, V. (1836), Şirvanskaya provinsiya, *Obozreniye Rossiyskix vladeniy za Kavkazom,* v 4-x çastyax, çast III, Tipoqrafiya Departamenta Vneşney torqovli, SPb.

Leqkobıtov, V. (1836). Kubinskaya provinsiya. *Obozreniye Rossiyskix vladeniy za Kavkazom,* v 4-x çastyax, çast IV, Tipoqrafiya Departamenta Vneşney torqovli, SPb.

Mustafayev, C. (2002). *Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq*. Elm.

Mustafayev, A. (2009). *Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat).* Bakı Universiteti nəşriyyatı.

Mustafazadə, T. (2005). *Quba xanlığı*. Elm.

Myuşkyurskaya dolina, 28 fevralya (12 marta) 1865 qoda, №17, *Kavkaz.*

Niftəliyev, R. (2006). *XIX əsrin ikinci yarısında Şimali Azərbaycan kəndlilərinin azadlıq hərəkatı.* ADPU nəşriyyatı.

*Pervaya vseobşaya perepis naseleniya Rossiyskoy imperii, 1897 g.*, LXI, Bakinskaya quberniya. (1905). "Sentralnaya" tipo-litoqrafiya M.Ya. Minkova, SPb.

Piralov, A. (1913). *Kratkiy oçerk kustarnıx promıslov Kavkaza*. Tipo-litografiya Yakor, SPb.

Pismo Kasim-beka Bakinskoqo k qen.-l. Repinu, ot 15-qo iyunya 1809 qoda, *Aktı, sobranniye Kavkazskoyu Arxeoqrafiçeskoyu Komissiyeyu.* (1878). v 12-ti tomax, tom IV, Tipoqrafiya Qlavnoqo Upravleniya Namestnika Kavkazskoqo.

Ponijeniye sen na serebro, 29 yanvarya 1877 qoda, № 13, *Kavkaz.*

Putevıye zametki, 19 fevralya 1859 qoda, №15, *Kavkaz.*

Putevıye zametki, 28 maya 1861 qoda, №41, *Kavkaz.*

Radjabli, A. (1997). *Numizmatika Azerbaydjana,* Elm ve Xayat.

Rozanov, N. (1835). O zanyatiyax Zakavkazskoqo Obşestvo Pooşireniye selskoy i manufakturnoy promışlennosti i torqovli, *Jurnal manufaktur i torqovli*, Tipoqrafiya N.Qreça, SPb., № 6.

Selskoye xozyaystvo. Promışlennost i torqovlya, *Kavkaz, spravoçnaya kniqa, sostavlennaya starojilom.* (1888). Tipoqrafiya İ. Martirosyansa, Tiflis.

Sumbatzade, A. (1961). *Promışlennost Azerbaydjana v XIX v.*, İzdatelstvo Akademii Nauk Azerbaydjanskoy SSR, Baku.

Torqovıye izvestiya, 8 marta 1877 qoda, №40, *Kavkaz.*

*Torqovo-promışlennaya Rossiya. Spravoçnaya kniqa dlya kupsov i fabrikantov*. (1899). Tipoqrafiya A.S.Suvorina, SPb.

Veydenbaum, Y. (1877). Zametki ob upotreblenii kamnya i metallov Kavkazskix narodov. Jelezo i med, *İzvestiya Kavkazskoqo İmperatorskoqo Qeoqrafiçeskoqo obşestva*. Tom IV, №5. Tipoqrafiya Qlavnoqo Upravleniye Namestnika Kavkazskoqo.

Voskoboynikov, Q. (1830). O Daralaqaçeskom svinsovom rudnike i o kislom mineralnom istoçnike, bliz onaqo naxodyaşemsya, *Qornyi jurnal*, çast I, kniqa 3.

Vysoçayşe utderjdennıy Probirnıy ustav, *Polnoye Sobraniye Zakonov Rossiyskoy İmperii.* (1899). sobraniye III, tom XVI, otdeleniye pervoye, Qosudarstvennaya tipoqrafiya, SPb.

Yevetskiy, O. (1835). *Statistiçeskoye opisaniye Zakavkazskoqo kraya*. V 2-x çastyax. Tipoqrafiya Ştaba Otdelnoqo Korpusa Vnutrenney Straji, SPb.

Markqraf, O. (1882). *Oçerk kustarnoy promışlennosti Severnoqo Kavkaza,* Tipoqrafiya S.V. Quryanova.

Mustafaev, A. (2008). Proizvodstvo oqnestrelnoqo orujiya v Azerbaydjane, *Naslediye*, №1 (31).